**"5311.01 - “Müəssisələrin təşkili və idarə olunması”"**

ixtisası üzrə fəlsəfə doktorluğu imtahanının

**PROQRAMI**

**BAKI-2021**

# GİRİŞ

Müəssisələr ölkə iqtisadiyyatının makroiqtisadi göstəricilərini müəyyənləşdirən əsas elementlərdən biri olub, cəmiyyətin sosial-iqtisadi həyatına əhəmiyyətli təsir göstərir. Müəssisələrin, xüsusəndə kiçik və orta sahibkarlıq subyektlərinin inkişafının təmin edilməsi iqtisadiyyatın rəqabətqabiliyyətliliyi, dayanıqlılığı, xüsusən də iqtisadi inkişaf baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu gün sahibkarlığın əsas hərəkətverici amilə çevrilməsi qarşıda duran əsas çağırışlardandır. Məhz bu səbəbdən ölkədə biznes mühitinin və tənzimləyici hüquqi bazanın yaxşılaşdırılması, uzunmüddətli perspektivdə kiçik və orta sahibkarıq fəaliyyətinin nəticələrinin ÜDM-ə təsirinin artırılması, müəssisələrin fəaliyyətinin beynəlmiləlləşdirilməsi və xarici bazarlara çıxış imkanlarının artırılması "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin" əsas məqsədi sayılır.

5311.01 –"Müəssisənin təşkili və idarə olunması" ixtisası üzrə doktoranturaya ixtisas imtahanı vermək üçün nəzərdə tutulmuş proqram tədris prosesində keçirilmiş "Müəssisə iqtiadiyyatı", "Sənayenin iqtisadiyyatı", "Mikroiqtisadiyyat" "Menecment", "Marketinq" kimi fənlərin tədris proqramları əsasında tərtib edilmişdir.

Tədris proqramında kursunun predmeti və obyekti, iqtisadi məzmunu, müəssisələrin təşkilati hüquqi təşkilati formaları, sahibkarlıq fəaliyyətinin mahiyyəti, istehsal və onun iqtisadi səmərliyi, müəssisələrin idarəedilməsi və onun fəaliyyətinin strateji palnlaşdırılması, müəssisənin insan resurları, əmək məhsuldarlığı və əmək haqqı məsələləri öz əksini tapmışdır. Bunlarla yanaşı müəssisələrin əsas vəsaitlər və istehsal gücü, əsas və dövriyyə vəsaitlərindən istifadə göstəriciləri, müəssisələrə investisiya qoyuluşlarının istiqamətləri, habelə müəssisələrin istehsal xərcləri, müəssisələrin maliyyə resursları və onların idarəedilməsi, mənfəət və sair bu kimi məsələlərə diqqət yetirilmişdir.

| № | **Mövzuların adı** |
| --- | --- |
| 1 | “Müəssisələrin təşkili və idarə olunması” kursunun predmeti və əsas vəzifələri |
| 2 | İstehsalın təşkili formaları, iqtisadi səməriliyi: mahiyyəti və meyarları |
| 3 | Müəssisənin sahibkarlıq fəaliyyəti və onun marketinq strategiyası |
| 4 | Müəssisənin iqtisadi fəaliyyətinin planlaşdırması |
| 5 | Müəssisənin əmlakı: əsas və dövriyyə vəsaitləri |
| 6 | Müəssisənin insan resursları. Əmək məhsuldarlığı və əməyin ödənilməsinin forma və sistemləri. |
| 7 | Müəssisənin istehsal xərcləri və məhsulların maya dəyəri |
| 8 | Müəssisənin qiymət siyasəti |
| 9 | Məhsulun keyfiyyəti və onun göstəriciləri |
| 10 | Müəssisənin maliyyəsi |
| 11 | Müəssisənin investisiya və innovasiya fəaliyyəti |
| 12 | Müəssisənin müflisləşməsi və ləğv edilməsi |
| 13 | İcarə, lizinq və françayzinq |

## *MÖVZU 1. “MÜƏSSİSƏLƏRİN TƏŞKİLİ VƏ İDARƏ OLUNMASI” KURSUNUN PREDMETİ VƏ ƏSAS VƏZİFƏLƏRİ*

Fənnin pedmeti və vəzifələri. Kursun öyrənilməsinin əsas məqsədi və vəzifələri. Kursun öyrənilməsində istifadə olunan metodların təsnifatı. Müəssisə anlayışı. Müəssisə milli iqtisadi sisteminin əsas ünsürü kimi.

Müəssisənin təşkilinin iqtisadi məzmunu və əhəmiyyəti. Müəssisənin təşkil olunması hüquqi əsasları. Müəssisənin hüquqi şəxs kimi səciyyəsi. Müəssisələrin qeydiyyat mərhələləri və bir pəncərə sistemi. Müəssisənin nizamnaməsi, nizamnamə fondu və onun yaradılması mənbəyi.

Müəssisələr haqqında Azərbaycan Respublikası Qanunu. Müəssisənin növləri və təşkilati-hüquqi formaları. Müəssisənin ləğvi və yenidən təşkil edilməsi

## *MÖVZU 2. İSTEHSALIN TƏŞKİLİ FORMALARI, İQTİSADİ SƏMƏRİLİYİ: MAHİYYƏTİ VƏ MEYARLARI*

İstehsalın mahiyyəti və təşkili. Müəssisədə istehsal prosesinin təşkili mərhələləri. İstehsalın təşkilinin formaları və xüsusiyyətləri. İstehsalın idarə edilməsinin nəzəri əsasları. İstehsal amillərindən istifadə və onları xarakterizə edən göstəriciləri. İsteshal strukturunun təkmilləşdirilməsi yolları. Müəssisənin istehsal gücü və onun hesablanma qaydası.

İstehsalın təmərküzləşdirilməsinin mahiyyəti və formaları. İstehsalın ixtisaslaşdırılmasının mahiyyəti və növləri. İstehsalın kooperasiyalaşdırılmasının mahiyyəti, onun formaları və əsas istiqamətləri. Azad iqtisadi zonalar. Sənaye klasterləri. Texnopolislər və Texnoparklar.

İstehsalın iqtisadi səmərəliliyi: meyarları və göstəriciləri. İstehsalın səmərəsinin artırılması yolları

## *MÖVZU 3. MÜƏSSİSƏNİN SAHİBKARLIQ FƏALİYYƏTİ VƏ ONUN MARKETİNQ STRATEGİYASI*

Marketinq və satış planlaşdırması. Marketinq vəzifələri və vasitələri Qiymətləndirmə modelləri. Malların reklamı və təşviqi. Reklam motivləri. Reklam miqyası və formaları seçimi.

Sahibkarlıq fəaliyyəti və növləri. KOS fəaliyyəti üçün biznes mühiti. Dünya Bankının "Doing Business" hesabatı. Dövlət-özəl tərəfdaşlığı. Rəqabət mühiti və institusional islahatlar. Sahibkarlıq subyektlərinin fəaliyyətində yoxlama və lisenziyalaşdırma mexanizmi. Sahibkarlıq subyektlərinin beynəlmiləlləşdirilməsi, xarici bazarlara çıxış imkanları. Biznes inkubatorları. KOS üzrə xüsusi sənaye zonalarının və klasterlərin yaradılması.

Biznes-planın mahiyyəti və əsas bölmələri. Müəssisənin marketinq strategiyası. Bazarın öyrənilməsi və müəssisədə satışın həcmi barədə proqnozlar. Tələbatın və bazar imkanlarının öyrənilməsi.

Müəssisənin marketinq fəaliyyəti və xüsusiyyətləri. Marketinq fəaliyyətində bazarın seqmentləşdirilməsi. Müəssisənin marketinq fəaliyətinin idarəedilməsi. Müəssisənin satış siyasəti və onun elementləri.

Autsorsinq.

## *MÖVZU 4. MÜƏSSİSƏNİN İQTİSADİ FƏALİYYƏTİNİN İDARƏEDİLMƏSİ VƏ PLANLAŞDIRMASI*

Səhmdar cəmiyyətlərində korporativ idarəetmə. Korporativ idarəetmə prinsipləri. İdarə heyətinin iş mexanizmi. Müəssisələrin növləri və strukturları. İstehsal texnologiyası və xərcləri. Çeşid effekti. İstehsalın şaxələndirilməsi. SWOT təhlili. Etibarlı strategiyaların seçimi. Şirkət rəhbərliyi. Şirkətin idarəetmə sisteminin tərkib hissələri. İdarəetmə qərarlarının metodlarının təsnifatı. Problem həll mərhələləri (problemin diaqnozu, alternativlərin inkişafı, alternativlərin qiymətləndirilməsi, həll yollarının tətbiqi). Mümkün nəticələri qiymətləndirmək üçün proqnozlaşdırma. İdarəetmə qərarının təyin edilməsi. Qərar vermə modelləri.

Müəssisənın rəqabət üstünlükləri və onları müəyyən edən amillər. Bazar seqmentləşdirmə strategiyası

İdarəetmənin mahiyyəti və üsulları

Planlaşdırmanın mahiyyəti və prinsipləri. Planlaşdırmanın metodları. Müəssisənin inkişaf planının əsas bölmələri. Planlaşdırmanın növləri: strateji, taktiki, cari, operativ. Müddətinə görə planlar: qısa müddətli, orta müddətli, uzun müddətli. İstehsal proqramının mahiyyəti və göstəriciləri.Strateji planlaşdırma. Uzunmüddətli və cari planlar.İstehsal siyasəti və istehsal proqramının planlaşdırılması.Strateji planlaşdırmada proqnozlaşdırmanın rolu. Proqnozlaşdırmanın mahiyyəti. Proqnozlaşmada iqtisadi-riyazi, iqtisadi-statistik və trend modelləri.

## *MÖVZU 5. MÜƏSSİSƏNİN ƏMLAKI: ƏSAS VƏ DÖVRİYYƏ VƏSAİTLƏRİ*

Əsas vəsaitlər və dövriyyə kapitalı. Əsas vəsaitlərin qiymətləndirmə modelləri. Amortizasiya. Qeyri-maddi aktivlər. Dövriyyə kapitalı: tərkibi, quruluşu, norması. Əsas vəsaitlərin mahiyyəti və təsnifatı. Əsas vəsaitlərin qiymətləndirilməsi: ilkin, bərpa, qalıq dəyəri. Əsas vəsaitlərin fiziki və mənəvi köhnəlməsi. Əsas vəsaitlərin amortizasiyası və hesablama metodları (düzxətli metod; qalıq dəyəri metodu; istehsal metodu; istifadə müddətinin illərinin cəmi metodu). Əsas vəsaitlərindən istifadə göstəriciləri və onların hesablaması.Dövriyyə vəsaitlərinin mahiyyəti, təsnifatı və quruluşu. Dövriyyə və tədavül fondları. İstehsal gücü. İstehsal gücünə təsir edən amillər. İstehsal güclərindən istifadə göstəriciləri və onların hesablanması metodları. Əsas və dövriyyə vəsaitlərindən istifadə göstəriciləri. Material resurslarına qənaət edilməsi yolları.

## MÖVZU 6. MÜƏSSİSƏNİN İNSAN RESURSLARI. ƏMƏK MƏHSULDARLIĞI VƏ ƏMƏYİN ÖDƏNİLMƏSİNİN FORMA VƏ SİSTEMLƏRİ

Personal idarəetmə sistemləri.Müəssisənin insan resursları, onun tərkibi və quruluşu. İnsan resurslarının idarə edilməsi. İşçi heyətin işə qəbulu və seçilməsi. Kadrların hazırlığı və onun keyfiyyət göstəricilərinin yüksəldilməsi. Kadr axıcılığı.

Əməyə olan tələbin müəyyən edilməsi. Müəssisədə əməyin təşkili və normalaşdırılması. Əməyin ödənilməsinin forma və sistemləri. Əməyin işəmuzd və vaxtamuzd qaydada ödəniş formaları. Əməyin tarifsiz ödənilməsi sistemi. Əmək haqqı: nominal və real. Orta aylıq əmək haqqı. Minimum əmək haqqı. Əmək məhsuldarılğı mahiyyəti və ölçülməsi. Əmək məhsuldarlığına təsir edən göstəricilər. Əmək məhsuldarlığının yüksəldilməsi amilləri və ehtiyatları. Əməyin motivasiyası.

## MÖVZU 7. MÜƏSSİSƏNİN İSTEHSAL XƏRCLƏRİ VƏ MƏNFƏƏT

İqtisadi xərcləri. İstehsal xərclərin təsnifləşdirilməsi. İstehsal xərcləri və məhsulun maya dəyərinin mahiyyəti. Məhsulların maya dəyərinin növləri, təsnifatı və tətbiqi sferası. İstehsalın xüsusiyyətləri və onun dəyərinin formalaşmasına təsiri. Mənfəət və rentabellik, onların mahiyyəti.

Mənfəətin yaranma mənbələri. Mənfəətin bölüşdürülməsi.

Rentabellik və onun hesablanması.

*Mikroiqtisadiyyatın əsasları, İstehlakçı üstünlükləri və seçimi. Qeyri-müəyyənlik şəraitində istehlakçı seçimi. Oligopoliya modelləri.Bazara giriş xərcləri və onların bazar strukturuna təsiri. Təbii inhisarlar, təbii inhisarların tənzimləmə üsulları.*

## MÖVZU 8. MÜƏSSİSƏNİN QİYMƏT SİYASƏTİ

Bazar iqtisadiyyatında qiymətlərin əmələ gəlməsi qanunuyğunluqları. Qiymət funksiyası. Müəssisənin qiymət siyasəti. Müəssisənin qiymət strategiyası. Müəssisədə qiymətqoymanın metodları.Qiymət siyasəti: satışın təmin edilməsi, mənfəətin maksimallaşdırılması, bazarın əldə saxlanması. Qiymətin tənzimlənməsi.

Müəssisədə qiymətqoymanın növləri və metodları. Qiymətin hesablanması metodikası.

Tender qiyməti və onun müəyyən edilməsi metodikası

Tələb və təklifin qiymətə görə elastikliyi, onların iqtisadi interpretasiyası.

## MÖVZU 9. MƏHSULUN KEYFİYYƏTİ VƏ ONUN GÖSTƏRİCİLƏRİ

Məhsulun keyfiyyət anlayışı. Keyfiyyət göstəriciləri istehlakçı dəyərlərinin əsas qiymətləndirmə kateqoriyası kimi. Məhsulun keyfiyyət göstəriciləri.Keyfiyyət və keyfiyyət idarəetməsi. Keyfiyyət idarəetmə sistemində texniki tənzimləmə. Keyfiyyət təminatı sistemində standartlaşdırma. Məhsulların sertifikatı. Qiymətləndirmə praktikası. Məhsulun keyfiyyət səviyyəsinin qiymətləndirilməsi. Məhsulun keyfiyyətinin planlaşdırılması. Məhsulun keyfiyyətinin yüksəldilməsi üzrə planlaşdırma. Məhsulun rəqabətqabiliyyəti və onu müəyyən edən əsas amillər. Keyfiyyətin idarəedilməsi və onun iqtisadi əhəmiyyəti.

Kvalimetriya – məhsulun keyfiyyətinin kəmiyyətcə qiymətləndirilməsi metodu kimi. müəssisədə keyfiyyətə nəzarətin təşkili. müəssisənin məhsul keyfiyyətinin yüksəldilməsi siyasəti.Məhsulun standartlaşdırılması və sertifiklaşdırılması.

## MÖVZU 10. MÜƏSSİSƏNİN MALİYYƏSİ

Müəssisənin maliyyə fəaliyyətinin mahiyyəti. Maliyyənin funksiyaları. Müəssisənin maliyyə resursları və onların yaranma mənbələri. Müəssisədə maliyyənin idarə edilməsi sistemi. Mənfəətin növləri və hesablama metodları.

Müəsissənin maliyəsinin təşkili. Müəssisənin maliyyə fəaliyyətinin qiymətləndirilməsi. Maliyyə menecmentinin mahiyyəti, funksiyaları və metodları. Müəssisənin dövriyyə aktivləri və kreditor borclarının idarə edilməsi. Maliyyə riski və onun idarə edilməsi. İnflyasiya və maliyyə əməliyyatlarında onun nəzərə alınması.

Maliyyə menecmentinin informasiya təminatı.Müəssisənin maliyyə nəticələri. Müəssisənin maliyyə nəticələrinin əsas göstəriciləri. Maliyyə hesabatları. Maliyyə planı. Şirkətdə idarəetmə uçotu sistemi. İdarəetmə uçotu metodları. Fəaliyyət növünə

görə mühasibat uçotunun xüsusiyyətləri və üstünlükləri. Vergilər və digər məcburi ödənişlər. Azərbaycanda müəssisələr tərəfindən ödənilən əsas vergi növləri.

## MÖVZU 11. MÜƏSSİSƏNİN İNVESTİSİYA VƏ İNNOVASİYA FƏALİYYƏTİ

Firmadakı yeniliklərin idarə olunması. Yenilik növləri. İnnovativ fəaliyyətin təşkili. İnnovasiyanın effektivliyinin qiymətləndirilməsi. Müəssisələrdə yeniliklərinidarə olunması.

İnvestisiya fəaliyyəti. İnvestisiya qoyuluşunun mahiyyəti və növləri. AR-nın investisiya fəaliyyəti haqqında qanunu. İnvestisiyanın idarə edilməsi yolları. İnvestisiyanın iqtisadi qiymətləndirilməsi meyarları. İnvestisiyanın səmərəlilik göstəriciləri. Pulun müvəqqəti dəyərə malik olması, diskontlaşdırma. Layihə variantlarının seçilməsi metodikası. Layihənin qiymətləndirilməsində "həssaslıq" təhlili. "Zərərsizlik nöqtəsi"nin təyin edilməsi. Layihələndirmədə qərarların qəbulu.

İnvestisiyanın qiymətləndirilməsi metodikası və səmərəlilik göstəriciləri.

İnvestisiyanın idarə edilməsi sistemi.

Xarici investisiyalar və xarici investorlarla müqavilələrin növləri.

"İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu.

İnnovasiya anlayışı və növləri. İnnovasiyanın texnoloji və iqtisadi potensialı. Müəssisədə innovasiya fəaliyyətinin mərhələləri və səmərəliliyi.

İnnovasiyaların təşviqi və insan kapitalının inkişafı ilə bağlı "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" əsas müddəaları

## MÖVZU 12. MÜƏSSİSƏNİN MÜFLİSLƏŞMƏSİ VƏ LƏĞV EDİLMƏSİ

Müəssisənin müflisləşmə və iflası anlayışı. Biznes uğursuzluqlarının səbəbləri. Müəssisənin müflisləşməsinin əlamətləri. Müəssisələrin ödəmə qabiliyyətsizliyinin səbəbləri və həlli istiqamətləri. Müflisləşmənin daxili və xarici amilləri. Cari likvidlik əmaslı, müəssisənin öz vəsaitləri ilə təmin olunma əmsalı.

Müəssisələrin fəaliyyətinin antiböhran idarə edilməsi. Müəssisənin iflas elan edilməsinin hüquqi əsasları.

Müəssisənin yenidən qurulması və sağlamlaşdırılması (sanasiya).

## MÖVZU 13. İCARƏ, LİZİNQ VƏ FRANÇAYZİNQ

İcarənin iqtisadi mahiyyəti və prinsipləri. İcarə müavilələrinin növləri (rentinq, hayrinq, lizinq). İcarə verənlə icarədar arasında qarşılıqlı münasibətlərin tənzimlənməsi. Maddi həvəsləndirmə və təsərrüfat hesabı gəlirinin bölüşdürülməsi mexanizmi.

Lizinq: mahiyyəti və yaranma tarixi. Lizinq müqaviləsi. Linzinqin növəri. Beynəlxalq lizinq. Beynəlxalq Maliyyə Lizinqi haqqında Ottava Konvensiyası. Lizinqin tənzimlənməsi: hüquqi baza və beynəlxalq təcrübə. Lizinq subyektlərinin məsuliyyəti və riskləri.

Françayzinqin mahiyyəti və üstünlükləri. Azərbaycan Respublikasında françayzinqin hüquqi bazası. Françayzinq müqaviləsini digər oxşar müqavilələrdən fərqləndirən xüsusiyyətlər. Françayzinqin növləri

**5311.01 - “Müəssisələrin təşkili və idarə olunması”**

ixtisası üzrə fəlsəfə doktorluğu minimum imtahanının

**SUALLARI**

1. Müəssisənin təşkili və idarə olunmasının mahiyyəti və vəzifələri.
2. Müəssisənin təşkilatı-hüquqi formaları, növləri və təsnifatı.
3. Müəssisənin təşkil olunması və onun hüquqi əsasları.
4. İstehsalın mahiyyəti və təşkili. İstehsalın təşkilinin formaları və xüsusiyyətləri.
5. İstehsal amillərindən istifadə və onları xarakterizə edən iqtisadi səmərəlilik göstəriciləri.
6. İstehsalın təmərküzləşdirilməsinin mahiyyəti və formaları.
7. İstehsalın ixtisaslaşdırılmasının mahiyyəti və növləri.
8. İstehsalın kooperasiyalaşdırılmasının mahiyyəti, onun formaları və əsas istiqamətləri.
9. İstehsalın iqtisadi səmərəliliyi: meyarları və göstəriciləri. İstehsalın səmərəsinin artırılması yolları
10. Sahibkarlıq fəaliyyəti və növləri. Biznes mühiti.
11. Dövlət-özəl tərəfdaşlığı. Rəqabət mühiti və institusional islahatlar.
12. Sahibkarlıq subyektlərinin fəaliyyətində yoxlama və lisenziyalaşdırma mexanizmi.
13. Biznes inkubatorları. KOS üzrə xüsusi sənaye zonalarının və klasterlərin yaradılması.
14. Biznes-plan və müəssisənin marketinq strategiyası. Tələbatın və bazar imkanlarının öyrənilməsi.
15. Müəssisənin marketinq fəaliyətinin idarəedilməsi. Müəssisənin satış siyasəti və onun elementləri. Autsorsinq.
16. İdarəetmənin mahiyyəti və üsulları.
17. Planlaşdırmanın mahiyyəti və prinsipləri. Planlaşdırmanın metodları. Müəssisənin inkişaf planının əsas bölmələri.

18. Planlaşdırmanın növləri: strateji, taktiki, cari, operativ. Müddətinə görə planlar: qısa müddətli, orta müddətli, uzun müddətli.

19. Strateji planlaşdırmada proqnozlaşdırmanın rolu. Proqnozlaşmada iqtisadi-riyazi, iqtisadi-statistik və trend modelləri.

20. Əsas vəsaitlərin mahiyyəti və təsnifatı. Əsas vəsaitlərin qiymətləndirilməsi: ilkin, bərpa, qalıq dəyəri.

21. Əsas vəsaitlərin fiziki və mənəvi köhnəlməsi. Əsas vəsaitlərin amortizasiyası və hesablama metodları (düzxətli metod; qalıq dəyəri metodu; istehsal metodu; istifadə müddətinin illərinin cəmi metodu).

22. Əsas vəsaitlərindən istifadə göstəriciləri və onların hesablaması.

23. Dövriyyə vəsaitlərinin mahiyyəti, təsnifatı və quruluşu. Dövriyyə və tədavül fondları.

24. İstehsal gücü. İstehsal gücünə təsir edən amillər. İstehsal güclərindən istifadə göstəriciləri və onların hesablanması metodları.

25. Müəssisənin insan resursları, onun tərkibi və quruluşu. İnsan resurslarının idarə edilməsi.

26. Kadrların hazırlığı və onun keyfiyyət göstəricilərinin yüksəldilməsi. Kadr axıcılığı.

27. Əməyə olan tələbin müəyyən edilməsi. Müəssisədə əməyin təşkili və normalaşdırılması.

28. Əməyin ödənilməsinin forma və sistemləri. Əməyin işəmuzd və vaxtamuzd qaydada ödəniş formaları. Əməyin tarifsiz ödənilməsi sistemi.

29. Əmək haqqı: nominal və real. Orta aylıq əmək haqqı. Minimum əmək haqqı. Əməyin motivasiyası.

30. Əmək məhsuldarılğı mahiyyəti və ölçülməsi. Əmək məhsuldarlığının yüksəldilməsi amilləri və ehtiyatları.

31. İqtisadi xərcləri. İstehsal xərclərin təsnifləşdirilməsi. İstehsal xərcləri və məhsulun maya dəyərinin mahiyyəti.

32. Mənfəətin yaranma mənbələri. Mənfəətin bölüşdürülməsi. Rentabellik və onun hesablanması.

33. Qiymətlərin əmələ gəlməsi qanunuyğunluqları. Qiymət funksiyası. Müəssisənin qiymət siyasəti.

34. Müəssisənin qiymət strategiyası. Qiymət siyasəti: satışın təmin edilməsi, mənfəətin maksimallaşdırılması, bazarın əldə saxlanması. Qiymətin tənzimlənməsi.

35. Tələb və təklifin qiymətə görə elastikliyi, onların iqtisadi interpretasiyası.

36. Məhsulun keyfiyyət anlayışı. Məhsulun keyfiyyət göstəriciləri. Məhsulun rəqabətqabiliyyəti və onu müəyyən edən əsas amillər.

**37.** Keyfiyyətin idarəedilməsi və onun iqtisadi əhəmiyyəti. Məhsulun standartlaşdırılması və sertifiklaşdırılması.

38. Müəssisənin maliyyə fəaliyyətinin mahiyyəti. Maliyyənin funksiyaları. Müəssisənin maliyyə resursları və onların yaranma mənbələri. Müəssisədə maliyyənin idarə edilməsi sistemi. Mənfəətin növləri və hesablama metodları.

39. Müəsissənin maliyəsinin təşkili. Müəssisənin maliyyə fəaliyyətinin qiymətləndirilməsi. Maliyyə menecmentinin mahiyyəti, funksiyaları və metodları.

**40.** Müəssisənin dövriyyə aktivləri və kreditor borclarının idarə edilməsi. Maliyyə riski və onun idarə edilməsi.

41. Müəssisənin investisiya fəaliyyəti. İnvestisiyanın səmərəlilik göstəriciləri. Pulun müvəqqəti dəyərə malik olması, diskontlaşdırma.

42. Layihə variantlarının seçilməsi metodikası. Layihənin qiymətləndirilməsində “həssaslıq” təhlili. “Zərərsizlik nöqtəsi”nin təyin edilməsi. Layihələndirmədə qərarların qəblu.

43. Müəssisədə innovasiya fəaliyyətinin mərhələləri və səmərəliliyi. İnnovasiyanın texnoloji və iqtisadi potensialı.

44. İnnovasiyaların təşviqi və insan kapitalının inkişafı ilə bağlı “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi” əsas müddəaları

45. Müəssisənin müflisləşmə və iflası. Müəssisələrin ödəmə qabiliyyətsizliyinin səbəbləri və həlli istiqamətləri.

46. Cari likvidlik əmaslı, müəssisənin öz vəsaitləri ilə təmin olunma əmsalı. Müəssisələrin fəaliyyətinin antiböhran idarə edilməsi.

47. Müəssisənin yenidən qurulması və sağlamlaşdırılması (sanasiya).

48. İcarənin iqtisadi mahiyyəti və prinsipləri. İcarə müavilələrinin növləri (rentinq, hayrinq, lizinq). İcarə verənlə icarədar arasında qarşılıqlı münasibətlərin tənzimlənməsi.

49. Lizinq: mahiyyəti və yaranma tarixi. Beynəlxalq Maliyyə Lizinqi haqqında Ottava Konvensiyası. Lizinqin tənzimlənməsi: hüquqi baza və beynəlxalq təcrübə.

50. Françayzinqin mahiyyəti və üstünlükləri. Azərbaycan Respublikasında françayzinqin hüquqi bazası. Françayzinqin növləri

51. Azərbaycanda şirkətlərə dövlət dəstəyi:
52. Maliyyə və vergi alətləri.
53. Müəssisələrdə idarəetmə sistemi.
54. Müəssisələrdə texnoloji və məhsul yenilikləri.
55. Müəssisələrdə marketinq strategiyaları: mövcud vəziyyət.
56. Müəssisələrdə rəqabət qabiliyyəti, qiymətləndirmə metodları.
57. Dövlət şirkətləri, onların Azərbaycan iqtisadiyyatındakı rolu, inkişaf problemləri.
58. Ərazi-istehsal komplekslərinin formalaşması və idarə olunmasının təşkilati və iqtisadi aspektləri, klaster yanaşması.
59. Müəssisələrinin xarici iqtisadi fəaliyyətinin tənzimlənməsi nəzəriyyəsi və praktikası.
60. Müasir milli bazarın makroiqtisadi quruluşu və daxili əlaqələri (əmək bazarı, mal və xidmətlər bazarı, maliyyə bazarı).

61. İnnovasiyalar, onların xüsusiyyətləri və təsnifatı. Müəssisə innovasiya idarəetmə strategiyası.
62. Məhsulların optimal istehsal və satış həcmlərinin müəyyənləşdirilməsi.
63. Göstəricilər sistemindən istifadə edərək müəssisənin maliyyə vəziyyətinin qiymətləndirilməsi metodikası.
64. İnformasiya texnologiyaları və informasiya məhsuluMüasir müəssisələrdə maliyyə menecmentinin təşkili xüsusiyyətləri.
65. Kadr əməyinin nəticələrini qiymətləndirmə metodları. İşçilərin təşviqi və əmək haqqı.
66. İqtisadiyyatın dövlət tənzimlənməsi sistemi və elementləri.
67. İqtisadi tənzimlənmənin tarif və qeyri-tarif metodları. Ticarətinin liberallaşdırılması və proteksionist tədbirlər.
68. Rəqabətlilik və rəqabət üstünlükləri. İnvestisiya cəlbediciliyi.
69. Sənaye və müəssisələrin rəqabət qabiliyyətinin qiymətləndirilməsinin müasir metodları.
70. Sənaye inkişafının dövlət tənzimlənməsi. Struktur, sənaye və rəqabət siyasəti.
71. Sənaye komplekslərinin inkişafında infrastruktur amilləri. Xüsusi iqtisadi zonalar.
72. Sənaye komplekslərinin inkişafında infrastruktur amilləri. Texnopolislər, texnoparklar, biznes inkubatorlar.
73. İnnovasiya üçün dövlət təşviq mexanizmləri.
74. Autsorinq.